## *ALİ MƏCLİSİN İCLASI*

*19 dekabr 2023-cü il. Saat 11.22*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini **Anar İbrahimov** sədrlik edir.*

**Sədrlik edən.** Hörmətli deputatlar!

Üzrlü sayın, texniki səbəblərə görə gecikmə olduğu üçün iclasımızı vaxtında başlaya bilmədik. Hesab edirəm ki, vaxta əməl etməklə iclasımızı keçirə biləcəyik.

Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin payız sessiyasının növbəti-yeddinci iclasıdır. İclasda 37 deputatımız iştirak edir. Bildiyiniz kimi 31 deputat yetərsaydır. Ona görə də iclasımız öz işinə başlamağa səlahiyyətlidir.

| **Qeydiyyat** | (saat 11.23 dəq.) |
|---|---|
| İştirak edir | 37 |
| Yetərsay | 31 |

İclasın gündəliyinə aşağıdakı məsələlər verilir:

1. "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi (ikinci oxunuş).

2. Cari məsələlər.

Gündəliyə başqa əlavəsi olan varmı?

Yoxdur.

Xahiş edirəm gündəliyi səsə qoyaq.

| **Səsvermənin nəticələri** | (saat 11.24 dəq.) |
|---|---|
| Lehinə | 37 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 37 |
| Nəticə: Qəbul edildi | |

İclasın reqlamentini bilirsiniz, hesab edirəm ki, məruzə üçün 20 dəqiqə, çıxışlar üçün 10 dəqiqə, arayışlar üçün 3 dəqiqə vaxt yetərlidir.

Başqa bir təklifi olan varmı?

Yoxdur.

Gündəlikdə duran ilk məsələ ikinci oxunuşda olan "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsidir.

Xatırlatmaq istəyirəm ki, iclasımızda bu gün Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri hörmətli Ceyhun müəllim Cəlilov və Nazirlər Kabinetinin Aparat rəhbəri Aləm müəllim Bağırov iştirak edir. Onları iclasda salamlayıram.

Qanun layihəsi 18 dekabr 2023-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 18-ci və 19-cu maddələrinə uyğun olaraq birinci oxunuşda sizin iştirakınızla müzakirə edilmiş, Ali Məclisdə protokol qaydasında qərar qəbul edilərək ikinci oxunuşa verilmişdir.

Qanun layihəsinin ikinci oxunuşda müzakirəsi ilə əlaqədar məruzə etməsi üçün söz Sosial siyasət komitəsinin sədri Yeganə xanıma verilir. Buyurun.

**Y.Məmmədova,** *Ali Məclisin Sosial siyasət komitəsinin sədri.*

Hər birinizi salamlayıram. Dünən İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi ilə bağlı komitənin iclasını keçirdik. Bununla bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sosial siyasət komitəsinə daxil olmuş “İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi komitə üzvlərinə paylanılmışdır, hər birimiz tanış olduq. Layihəyə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 16-cı maddəsində nəzərdə tutulmuş qaydada baxılmışdır. Qanun layihəsinə əsasən İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsinin gəlirləri 6 milyon 118 min 319 manat, xərcləri 6 milyon 118 min 319 manat məbləğində nəzərdə tutulmuşdur. Komitənin iclasında hökumət nümayəndələrinin iştirakı ilə qanun layihəsi müzakirə olunmuş, təkliflər və iradlar irəli sürülmüşdür. Qaldırılan məsələlər iclasda müzakirə edilərək mümkün tənzimləmələr nəzərə alınmışdır və qanun layihəsi “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun hazırlanmışdır.

**Sədrlik edən.** Çox sağ olun, Yeganə xanım, minnətdaram. Əlavə olaraq deputat həmkarlarıma bu proses haqqında biraz məlumat vermək istəyirəm. Bilirsiniz ki, Naxçıvan Muxtar Respublikasının hökuməti Azərbaycan Respublikasının mərkəzi qurumları ilə bir sıra sahələrin mərkəzi maliyyələşməyə keçməsi ilə bağlı Memorandum imzalamışdır. Belə ki, artıq Dövlət Sosial Müdafiə Fondu və bir sıra başqa sahələr keçmişdir. Dünən keçirilən iclasda da Ceyhun müəllim bu haqda geniş məlumat vermişdi. Amma hələlik Naxçıvan Muxtar Respublikasında mərkəzi maliyyələşməyə keçməyən bu sahə qalıb, bunun üçün prosedurlara görə üç oxunuşlu qanun qəbul etməliyik. Xatırlatmaq istəyirəm ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20.3-cü maddəsinə əsasən ikinci oxunuşda müzakirə edilən qanun layihəsinin əsas kimi qəbul edilməsi barədə protokol qaydasında qərar qəbul edilməlidir. Əgər bu cür qərar qəbul edilməzsə, qanun qəbul olunmamış hesab olunur. Dünənki müzakirələrdən də göründü ki, qanuna dair nə komitələrdə, nə də Ali Məclisin toplantısında heç bir irad olmuşdur. Ona görə qanunu ikinci oxunuşda prosedurlara əməl etmək şərti ilə müzakirələrdən keçirəcəyik.

Deputatlardan kim “İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsinin əsas kimi qəbul edilməsinə tərəfdardırsa, xahiş edirəm münasibətini bildirsin.

| **Səsvermənin nəticələri** | (saat 11.28 dəq.) |
|---|---|
| Lehinə | 37 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 37 |
| Nəticə: Qəbul edildi | |

Beləliklə, qanun layihəsi əsas kimi qəbul edildi.

Hörmətli həmkarlar, prosedurlara uyğun olaraq qanunun maddə-maddə müzakirəsinə başlayırıq. Hörmətli nazir Ceyhun müəllimdən xahiş edirik ki, qanunu müzakirəyə çıxarsın. Buyurun.

**C.Cəlilov,** *Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri.*

Hörmətli Anar müəllim, hörmətli deputatlar, hörmətli sessiya iştirakçıları!

Naxçıvan Muxtar Respublikasının “İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında” Qanun layihəsini diqqətinizə çatdırıram. Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin 2-ci bəndinə istinad edərək qanun layihəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı üçün təklif olunur.

Maddə 1. Büdcənin ümumi göstəriciləri.

İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsinin gəlirləri 6 milyon 118 min 319 manat, xərcləri 6 milyon 118 min 319 manat məbləğində təsdiq edilsin.

**Sədrlik edən.** Çox sağ olun, Ceyhun müəllim, işi tezləşdirmək üçün bir xatırlatma edim, belə ki, hər dəfə səsverməyə ehtiyac varsa səsə qoyaq, əgər ehtiyac yoxdursa qoymayaq. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.29 dəq.) |
|---|---|
| Lehinə | 37 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 37 |

Nəticə: Qəbul edildi

**C.Cəlilov,** *Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri.*

Maddə 2. Gəlirlər.

Müəyyən edilsin ki, 2024-cü ildə işsizlikdən sığorta fondunun gəlirləri aşağıdakı daxilolmalar hesabına formalaşır:

| **Gəlirlərin mənbəyi** | | **Məbləğ (manatla)** |
|---|---|---|
| 2.1. | İşsizlikdən sığorta üzrə sığorta haqları, cəmi | 3 610 000,0 |
| | o cümlədən: | |
| 2.1.1. | büdcədən maliyyələşən təşkilatlar üzrə | 1 380 000,0 |
| 2.1.2. | büdcədən maliyyələşən təşkilatlarda işləyənlər üzrə | 1 380 000,0 |
| 2.1.3. | qeyri-büdcə sektoru üzrə | 850 000,0 |
| 2.2. | Sair gəlirlər | 2 000,0 |
| 2.3. | 2023-cü ilin sonuna işsizlikdən sığorta fondunun istifadə olunmamış vəsaiti | 2 506 319,0 |

**Sədrlik edən.** Maddə ilə bağlı etirazı və ya fikri olan varmı? Yoxdur. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.30 dəq.) |
|---|---|
| Lehinə | 37 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 37 |

Nəticə: Qəbul edildi

**C.Cəlilov,** *Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri.*

Maddə 3. Xərclər.

Müəyyən edilsin ki, işsizlikdən sığorta fondunun 2024-cü il büdcəsinin xərcləri aşağıdakı istiqamətlərdə həyata keçirilir:

| Xərclərin istiqaməti | | Məbləğ (manatla) |
|---|---|---|
| 3.1. | İşsizliyə görə sığorta ödənişləri | 300 000,0 |
| 3.2. | Peşə hazırlığı və əlavə təhsilin təşkili | 727 000,0 |
| 3.3. | Əmək yarmarkalarının təşkili və peşəyönümünə dair məsləhət xidmətlərinin göstərilməsi | 100 000,0 |
| 3.4. | Haqqı ödənilən ictimai işlərin təşkili | 400 000,0 |
| 3.5. | Özünüməşğulluq tədbirlərinin təşkili | 683 000,0 |
| 3.6. | Sosial iş yerlərində işçilərin əməkhaqqının bir hissəsinin maliyyələşdirilməsi | 150 000,0 |
| 3.7. | Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin aparatının və onun yerli orqanlarının, habelə tabeliyindəki digər qurumların saxlanılması xərcləri | 3 758 319,0 |

**Sədrlik edən.** Çox sağ olun, Ceyhun müəllim. Maddə ilə bağlı kiminsə iradı və ya sualı varmı? Yoxdur. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.31 dəq.) |
|---|---|
| Lehinə | 37 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 37 |

Nəticə: Qəbul edildi

**C.Cəlilov,** *Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri.*

Maddə 4. Qalıqlardan istifadə.

İşsizlikdən sığorta fondunun (o cümlədən Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin aparatının və onun yerli orqanlarının, habelə tabeliyindəki digər qurumlarının) hesablarında ilin sonuna qalan vəsait növbəti ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilir.

**Sədrlik edən.** Hesab edirəm ki, deputat həmkarlarımdan etirazı olan olmaz. Sonuncu maddə də texniki maddədir.

| **Səsvermənin nəticələri** | (saat 11.32 dəq.) |
|---|---|
| Lehinə | 37 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 37 |

Nəticə: Qəbul edildi

**C.Cəlilov,** *Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri.*

Maddə 5. Qanunun qüvvəyə minməsi.

Bu Qanun 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

**Sədrlik edən.** Çox sağ olun, Ceyhun müəllim.

| **Səsvermənin nəticələri** | (saat 11.32 dəq.) |
|---|---|
| Lehinə | 37 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 37 |
| Nəticə: Qəbul edildi | |

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20.4-cü və 20.5-ci maddələrinə əsasən müzakirələrdən sonra qanun layihəsi ikinci oxunuşda qəbul edilir və qəbul edilmiş qanun layihəsi müzakirə zamanı müəyyənləşdirilmiş daxili ziddiyyətlərin aradan qaldırılması və redaktə edilməsi üçün aparıcı komitəyə qaytarılır. Qanunla bağlı qeyd etdiyim kimi deputatların nə birinci, nə də ikinci oxunuşda, həmçinin komitə iclasında da iradları var idi. Belə ki, prosedura uyğun olaraq üçüncü oxunuşa çıxarılması üçün komitəyə qaytarıb 22 dekabr tarixində keçirilməsi nəzərdə tutulan Ali Məclisin növbəti iclasında üçüncü oxunuşdan keçirmək fikrimiz var.

Deputatlardan kim "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsinin ikinci oxunuşda qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

| **Səsvermənin nəticələri** | (saat 11.34 dəq.) |
|---|---|
| Lehinə | 37 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 37 |
| Nəticə: Qəbul edildi | |

Beləliklə, qanun layihəsi ikinci oxunuşda yekdilliklə qəbul edildi

Gündəlikdə duran ikinci məsələ keçən dəfə razılaşdığımız kimi cari məsələlərdir. Təcrübədən belə başa düşürəm ki, cari məsələlərlə bağlı iki aparıcı təşkilatımız var. Bunlardan biri "Naxçıvan Muxtar Respublikasının Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyəti, biri isə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyidir. Eləcə də Ali Məclisə daxil olan müraciətlərə baxılan zaman da məlum olur ki, əhalinin əsas müraciətləri bu iki sahə ilə bağlıdır. Bu o demək deyil ki, sahələrdə ciddi problemlər var, sadəcə olaraq əhalinin hər bir hissəsinə bilavasitə təmas olan sahələrdir, ona görə də Ceyhun müəllimin burada iştirak etməsi yaxşı haldır. Həmçinin Aləm müəllimdən də xahiş edəcəyəm ki, cari məsələlərlə bağlı deputatların qaldırdığı məsələləri hökumətə çatdırsın və gələcəkdə hökumət rəhbərinin iştirakı zamanı burada cavablandırması təşkil olunsun. İndi isə icazənizlə cari məsələlərin müzakirəsinə başlayaq. İlk olaraq sözü 17 saylı Çalxanqala seçki dairəsindən Ali Məclisin deputatı Ehtimad Məmmədova vermək istəyirəm. Buyurun, Ehtimad müəllim.

**E.Məmmədov.** Hömətli Anar müəllim, hörmətli hökumət nümayəndələri, hörmətli deputatlar və mətbuat nümayəndələri!

Azərbaycanda, ümumilikdə, 1500 kəhriz var. Naxçıvanda isə 307 kəhrizin olduğu deyilir. Kəngərli rayonunda isə 168 kəhrizin qeydiyyatda olduğu bildirilir. Təmiz, ziyansız və etibarlı su mənbəyi hesab olunan kəhrizlər təmirdən başqa heç bir xərc tələb etmir. Xok kəndində 21 kəhrizdən 9-u işləyir. İşləyən 9 kəhrizdən sadəcə birinin suyu ilə kəndin böyük bir hissəsinin həyatyanı sahələrinin suvarılmasında və içməli suyu üçün, həmçinin, Yeni Kərki və Böyükdüz kəndlərinin içməli suyu üçün istifadə edilir. Əlavə olaraq Xok kəndinin aşağısındakı gölü su ilə təmin edir və həmin

ərazidə olan 110 hektar pay torpaqları kəhrizin suyu ilə suvarılır. Bir kəhrizin suyu ilə nə qədər ərazinin suvarıldığını gördükdən sonra kəhrizlərin necə əhəmiyyətli olduğunu anlayıram. Çalxanqala kəndində 42 kəhrizdən yalnız 4-ü, Xıncab kəndində 28 kəhrizdən 5-i, Təzəkənd kəndində 4 kəhrizdən 1-i, Böyükdüz kəndinin ərazisi olan köhnə Sust kəndində 6 kəhrizdən 1-i işləyir. Ərazinin böyük hissəsini tanıyan biri kimi Kəngərli rayonunda 168-dən daha çox kəhrizin olduğu qənaətindəyəm. Naxçıvan Muxtar Respublikasında Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin Kəhrizlər İdarəsi yaradılıb, ancaq bu yetərli deyil. Kəngərli rayonunda kəhrizlərin çoxluğunu nəzərə alıb "Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin Kəngərli Rayon Meliorasiya və Su Təsərrüfatı İdarəsinin nəzdində kəhrizlərin bərpası və təmiri üçün bir qurumun yaradılmasının mümkünlüyünə baxılmasını hökumət üzvlərindən xahiş edirəm. Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsində meliorasiya sahəsinə ayrılmış 31 milyon manat vəsaitin 13 milyon manatının elektrik enerjisinin xərclərinə ödənəcəyini və bir nasos stansiyasının təqribən 6 milyon manata başa gəldiyini nəzərə alsaq, kəhriz suyunun heç bir xərc tələb etmədən fasiləsiz axması kəhrizlərin əhəmiyyətini daha da artırır. Təzəkənd kəndinin əsas suyunu "Qasımbəy kəhrizi" ödəyir. Qısa dövr öncə Kəhrizlər İdarəsi tərəfindən 28 quyusu olan bu kəhrizin ilk iki quyusu arasındakı məsafə təmizləndiyi üçün bu kəhrizdə qismən su artımı müşahidə olunmuşdur. Əgər 28 quyu təmizlənsə kəndin içməli su problemi böyük ölçüdə həll olunmuş olar. Təzəkənd və Xıncab kəndlərində su çatışmazlığı əhalinin məskunlaşmasına ciddi təsir göstərir.

Kəngərli rayonunun Xok və Yeni Kərki kəndlərinin arasında Xok kəndinə məxsus "Böyük anbar gölü" adlandırılan göl 1990-cı illərdə tikilib istifadəyə verilib. Lakin bu günə kimi dibində bərkitmə işləri aparılmadığından göl su saxlamır. 1 000 000 $m^3$ həcmi olan bu gölə suyun təmini təqribən 3 km məsafədə olan Sustun selovundan ildə ən azı iki dəfə gələn sel sularının hesabına nəzərdə tutulmuşdur. Xahiş edirəm ki, bu gölün təmiri və su ilə dolurdurulması üçün tədbirlər görülsün.

Əlavə olaraq Kəngərli rayonunun Xok kəndində magistral yolun aşağısında 480 hektar pay torpağı olan əraziyə, Yeni Kərki və Xok kəndlərinin magistral yolunun üzərində olan 120 hektar pay torpağı olan əraziyə, həmçinin Böyükdüz kəndində 441 hektar pay torpağı olan əraziyə 1970-1975-ci illərdə çəkilmiş su xətləri yararsız vəziyyətdədir. Belə ki, "zadvişka" adlanan suayırıcıları çürümüş, yararsız vəziyyətə düşmüşdür. Bu xətlərin suayırıcılarından başqa digər hissələrinin azbest turbalar olduğunu, xarab olmadığını nəzərə alsaq, təmiri üçün çox da xərc tələb olunmayacağı aydındır. Sadəcə suayırıcılarında bəzi yerlərdən turbaların tutulduğunu nəzərə alaraq bu xətlərin təmir olunmasını xahiş edirəm. Çünki bu ərazidə suvarma suyu arxlarla verildikdə hər bir kilometrdə suyun yarısı itkiyə gedir.

Böyükdüz kəndinin içməli su xətti də dəyişdirilməlidir. Xəttin 50 ildən artıq istifadə olunduğu məlumdur. Tez-tez qəzalar baş verir və günlərlə kəndə içməli su verilə bilmir. Müasir dünyada insanların sayının artması, quraqlıq və s. səbəbindən getdikcə suya olan ehtiyac artır. Əkin sahələrinin qənaətlə suvarılması üçün pivot layihələr və digər bu cür sistemlərin əkin sahələrinə tətbiqi üçün torpaq sahiblərinin təşviqi proqramının hazırlanması məqsədəuyğun olardı. Qənaət olunmuş su ilə əlavə bələdiyyə və dövlət fondunda olan torpaqlar icarəyə verilə bilər. Belə ki, 1 hektar torpaq sahəsinin 40 manata verildiyini nəzərə alsaq və Araz çayından Çalxanqala kəndinə qədər olan ərazidə əkinəyararlı təqribən 3500 hektara qədər torpaq sahəsi olduğundan 140 min manat vəsait dövlət büdcəsinə gəlir gətirmək olar. Kənd təsərrüfatının inkişafı üçün dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsindən istifadə olunması üçün müvafiq tədbirlər görülməsini zəruri hesab edirəm.

Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Ehtimad müəllim. Dəfələrlə qaldırılan məsələlərdir, Aləm müəllim yəqin ki, qeydiyyatını götürdü. Ehtimad müəllimdən xahiş edəcəyəm ki, həm katibliyə, həm də Aləm müəllimə bu məsələ ilə bağlı etdiyi çıxışın qeydlərini versin. Kəhrizlərin bərpası məsələsi bəlkə də Naxçıvan Muxtar Respublikasında əsas məsələlərdən biridir. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda meliorasiya və irriqasiya ilə bağlı tədbirlər paketi var. Amma deputatların da bu prosesə qoşularaq problemləri təsbit etməsi və onu hökumətin diqqətinə çatdırması da əlavə fürsətlər verir ki, bu sahədə problemlər nəzarətə

götürülsün və həll olunsun. Mövqeyinizə görə çox sağ olun. Hökumət yəqin ki, sizi eşitdi və cavablandıracaq.

Növbəti cari məsələlər üçün çıxışa yazılmış deputatımız 19 saylı Babək qəsəbə seçki dairəsini təmsil edən İsa müəllim Məmmədovdur. Buyurun, İsa müəllim.

**İ.Məmmədov.** Hörmətli Anar müəllim, hörmətli sessiya iştirakçıları, hörmətli dövlət nümayəndələri!

Öncəliklə hamınızı salamlayıram və bildirmək istəyirəm ki, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"na uyğun olaraq 2024-cü ildə və sonrakı illərdə dövlət və ya böyük sahibkarlar tərəfindən layihələrə uyğun olaraq yaradılacaq yeni müəssisələrin Naxçıvan şəhərində sıxlıq olacağını nəzərə alaraq, bu, yaradılan inkişaf sahələrinin rayonlarda və ya rayonların böyük qəsəbə və kəndlərində açılmasının təmin olunması nəzərə alınsın. Bu, həm də əhalinin, eləcə də gənclərin digər şəhərlərə getməsinin qarşısını alacaqdır. Artıq hamıya məlumdur ki, son illərdə işsizliyə görə gənclərin ailələrini tərk edərək başqa şəhərlərə qazanc dalınca getməsi bir çox ailələrin ayrılmasına, boşanmaların sayının artmasına səbəb olmuşdur. Təklif edirəm ki, yaşadığım Nehrəm qəsəbəsində istənilən sahibkar və ya dövlət tərəfindən yeni layihələrin tətbiqi zamanı istehsal sahələrini əhatə edən müəssisə, zavod, fabrikin və ya digər yeni iş yerlərinin açılması 13 min 942 nəfər əhalinin yaşadığı qəsəbədə insanların işlə təmin olunmasına, onların normal yaşamasına böyük dəstək olar. Nehrəm qəsəbəsi 2 min 798 təsərrüfatdan ibarətdir ki, bu təsərrüfatın 933-ü təqribən 4 min 500 nəfəri qəsəbəni tərk edərək işləmək üçün müxtəlif şəhərlərə köçmüşlər. Bu köç bu gün də davam etməkdədir. Bu köç tək Nehrəm qəsəbəsində deyil, digər kəndlərdə də mövcuddur, həmçinin Cəhri qəsəbəsində də eyni vəziyyətdir.

Digər bir məsələ isə dekabr ayının 6-da 50 nəfər I və II Qarabağ müharibəsi şəhidlərinin ailə üzvləri və qaziləri ilə görüş keçirdim. Şəhid ailələrinin qaldırdığı məsələlərdən biri dövlətimiz tərəfindən onlara ayrılmış birdəfəlik 2 min 500 manat dəyərində maddi vəsaitin verilməsi ilə bağlıdır. Belə ki, həmin vəsait bəzi şəhid ailələrinə verilib, bəzilərinə isə verilməyib, varlı-kasıb olaraq fərq qoyulub. Bu məsələyə aidiyyəti orqanlar tərəfindən aydınlıq gətirilməsini xahiş edirəm.

Əlavə olaraq şəhid ailələri ilə görüşlər zamanı şəhid adlarının əbədiləşdirilməsi ilə bağlı şəhid ailələrinin şəxsən fikirlərini dinlədik. I Qarabağ müharibəsi şəhidlərinin ailələri vardır ki, artıq onların 65-70 yaşları var, sağlıqlarında onlar şəhidlərinin adlarının əbədiləşdirilməsini görmək istəyirlər. Hətta siniflərə verilməsini təklif etmişdirlər. Xahiş edirəm ki, bunlar nəzərə alınsın. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, İsa müəllim. Bir dəqiqləşdirmə aparmaq istəyirəm, belə ki, hörmətli nazir də buradadır, qeyd etdiyiniz məsələ ilə bağlı əgər məlumat və ya konkret adlar varsa Ceyhun müəllimə təqdim edilsin və onun tapşırığı əsasında aidiyyəti nümayəndələr bu işlə məşğul olsunlar. Həmçinin İsa müəllim, qeyd etdiyiniz şəhid adlarının əbədiləşdirilməsini bir neçə dəfədir eşidirik, keçən dəfə də xatırlatma etdim, səlahiyyətli nümayəndə Fuad müəllimin iştirakı ilə bilirsiniz ki, muxtar respublikada şəhid ailələri ilə geniş bir görüş keçirilmişdir. Şəhidlərin çoxluğu imkan vermir ki, onların adlarının məktəblərə verilməsi ilə bağlı valideynlərin arzularını yerinə yetirək. Yəni dövlət orqanları bunların hamısını həyata keçirə bilməz. Amma müxtəlif formalarda baxıla və bu təkliflər də nəzərə alına bilər. Məsələn bildiyim qədərilə Nehrəm qəsəbəsində küçələrə adlar verilməyib. Bəlkə bu da bir çıxış yoludur ki, hansısa bir kənddə və ya qəsəbədə küçələrə ünvan verilərkən şəhid adlarının əbədiləşdirilməsi üçün istifadə olunsun. Yəni bu təklifdir, təklifi də hökumətə çatdırarıq, hökumət də bunu cavablandırar. Sağ olun. Cari məsələlərlə bağlı növbəti çıxış üçün yazılmış deputatımız 22 saylı Şıxmahmud seçki dairəsini təmsil edən Turan xanım Məmmədlidir. Buyurun, Turan xanım.

**T.Məmmədli.** Hörmətli Anar müəllim, hörmətli həmkarlar və hökumət nümayəndələri!

Naxçıvan Muxtar Respublikası ərazisində bugünkü ən qlobal problem içməli və suvarma suyudur. Deputat seçildiyim 22 saylı Şıxmahmud seçki dairəsinə 9 kənd daxildir. Suvarma suyu bütün

kəndlərdə çatışmır, əhalinin ən böyük təlabatının içməli su olduğunu nəzərə alsaq demək olar ki, bu kəndlər içərisində ən çox içməli suyun çatışmadığı Nəzərabad və Didivar kəndləridir. Belə ki, Didivar kəndində içməli suyun verilmə qrafikinə əsasən gündə 3 saat məhəllələrə verilir. Suyun həcmi isə çox aşağıdır. 3 saat ərzində məhəllədə yaşayan əhali yalnız su bidonlarını doldura bilirlər, əlavə heç nəyə istifadə edə bilmirlər.

Əraziyə baxış keçirdik, demək olar ki, məhəllələrin bir hissəsini gəzdik. Əhalidən aldığımız məlumata görə artezian quyuları qazılır, lakin 50-55 metrdən belə su çıxması müşahidə olunmur.

Kənd əhalisi və yerli inzibati ərazi dairəsi üzrə nümayəndə ilə görüşdük. Onlar məlumat verdilər ki, Didivar kəndi ərazisində dövlət balansında olan artezian işlək vəziyətdədir. Lakin həmin arteziandan Yuxarı Uzunoba kəndinin əhalisi suvarma suyu kimi istifadə edir. Əgər borular vasitəsilə həmin su Didivar kəndinə çəkilərsə əhalinin içməli suya olan tələbatı təqribən 50% azalar.

Digər tərəfdən Nəzərabad kəndinin ərazisində yerləşən “Təpəlik” deyilən ərazidəki ağacları suvarmaq üçün artezian qazılıb. Həmin yer çox yüksək olduğu üçün arteziandan istifadə edilməyib. Hazır artezian quyusu təqribən 55 metrdir. Tərəfimizdən baxış keçirildi, təqribən həmin quyuda 25-30 metr səviyyəsində suyun olduğunu müşahidə etdik.

Nəzərabad kəndinin içməli suyu “Anbar” deyilən ərazidən verilir. Hazırda başqa bir artezianın suyu həmin “Anbar”a doldurulur və kəndin məhəllə kranlarına ötürülür. Bəhs etdiyimiz artezian ilə “Anbar” arasındakı məsafə 350 metrdir. Artezian ilə elektrik şəbəkəsi arasındakı məsafə isə 300 metrdir. Əgər bir ədəd artezian nasosu olarsa və 300 metrlik elektrik xətti çəkilərsə həmin artezian işlək vəziyyətə gətirilərək suyu 350 metr boru vasitəsilə kəndin su anbarına tökülər. Uzunoba kəndi ərazisində olan artezianla qeyd etdiyim həmin artezianın az bir xərclə suları birləşərsə bu zaman həm Nəzərabad kəndinin, həm də Didivar kəndinin içməli suya olan tələbatı ödənilər.

Nəzərinizə çatdırım ki, bu kəndlərin hər ikisinin içməli suya tələbatı əvvəllər kəhriz ilə ödənilib. Əhalinin şifahi müraciəti ilə Kəhrizlər İdarəsinə müraciət etdim. İdarə əməkdaşları, kənd əhalisi və digər şəxslərlə birlikdə kəhrizə baxış keçirdik, müəyyən edildi ki, kəhriz çay və qrunt suları ilə qidalandığı üçün hazırda su yoxdur.

Həmçinin Aşağı Uzunoba kəndi ərazisində çoxlu artezianlar fəaliyyət göstərir. Artezianlardan biri dəmir borularla Cəhri Qəsəbə Polis Bölməsinin ərazisinə çəkilib. Diqqətinizə çatdırım ki, boru asfaltın alt hissəsi ilə gedir və çürüdüyü üçün demək olar ki, bölməyə də su çox az miqdarda gedir. Bölmənin ərazisində gözəl bir bağ salınıb və hazırda ağacların suvarılmasında da çətinlik yaranır.

Polis Bölməsi Uzunoba gölünün 400 metr məsafəsində yerləşir. Əgər uyğun olarsa həmin göldən bölmənin ərazisinə su verilsə, həmin arteziandan kənd əhalisi istifadə edər. Əhali su ilə təmin edilər və su itkisi olmaz, həmçinin bununla bölmənin ərazisinin də tamamilə suvarılması nasossuz işlək vəziyyətə gələr. Göl yuxarıda, Polis Bölməsi aşağıda olduğu üçün bunu təmin etmək mümkündür.

Digər bir məsələni diqqətinizə çatdırmaq istəyirəm, Belə ki, Babək şəhər qəbiristanlığında dəfn olunan şəhidimiz Mahmudov Anar Əşrəf oğlunun valideynlərinin müraciətidir. Müraciət ondan ibarətdir ki, Anar Mahmudov 2005-ci ildə şəhid olub. 44 günlük müharibədən sonra 1990-cı ildən bu günə qədər şəhidlərimizin məzarları yenilənib, amma Mahmudov Anar Əşrəf oğlunun məzarı yenilənməyib. Xahiş edirlər ki, onların da istəyi nəzərə alınsın.

Hörmətli Anar müəllim!

Bizə bu imkanları yaratdığınız üçün deputatı olduğum seçki dairəsinin əhalisi adından sizə öz minnətdarlığımızı bildiririk. Onu da demək istəyirəm ki, getdiyim ərazidə müxtəlif yollar axtararaq maksimum az xərclə nə etmək olar deyə görüşlər keçirərək müəyyən etməyə çalışdıq və sizin diqqətinizə çatdırdıq.

Diqqətiniz üçün çox sağ olun!

**Sədrlik edən.** Çox sağ olun, Turan xanım. Yenə də kəhriz məsələsidir, əvvəlki iclasda bunu müzakirə edən zaman ilk olaraq büdcədən kəhrizlərlə bağlı ayrılması nəzərdə tutulan vəsaiti sorğulamalı idik. Hesab edirəm ki, büdcəni qəbul etsək də, düzdür, hələ ki üçüncü oxunuş qalır, amma kəhrizlərlə bağlı ayrılan resurs kifayət etmir. Kəhrizlər İdarəsinin əməkdaşlarının sayı və resursu da azdır. Ehtiyac olarsa əlavə müzakirə edərik. Həmçinin Aparat rəhbərindən xahiş edəcəyəm ki, bu məsələləri nəzərə alaraq növbəti iclaslarda "Naxçıvan Muxtar Respublikasının Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi də olsun və verilən sualları burada cavablandıra bilsin. Cari məsələlərlə bağlı növbəti çıxış üçün söz 18 saylı Nehrəm seçki dairəsinin təmsilçisi Hüseyn Niftəliyevə verilir. Hüseyn müəllim, buyurun.

**H.Niftəliyev.** Hörmətli Anar müəllim, hörmətli deputatlar!

Hamınızı salamlayıram. 2020-ci ildə Nehrəm qəsəbə xəstəxanası icbari tibbi sığortaya keçməzdən 2 ay əvvəl xəstəxananın 38 oklad ştatı ixtisara salınıb. Hazırda xəstəxana işçilərinin 50%-i 0,5 oklad işləyir. Verilən əməkhaqqı 246 manatdır. 0,5 oklad ştat tutmalarına baxmayaraq biz onları 1 oklad əvəzi işlədirik, amma onların normal əməkhaqqısını verə bilmirik. 2022-ci ilin yanvar ayında Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi hörmətli Fuad Nəcəfli cənablarının qəbulunda olarkən bu məsələ ilə bağlı ətraflı məlumat verdim. Hörmətli Fuad Nəcəfli Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyinə tapşırıq verdi və həmin okladların qaytarılması üçün ştat cədvəli hazırlandı və Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim olundu. Lakin bu günə qədər həmin məsələ öz həllini tapmayıb. Hökumət nümayəndələrindən Nehrəm və Cəhri qəsəbə xəstəxanalarının oklad məsələlərinin həll olunması üçün ştatlara yenidən baxılmasını və köməklik göstərilməsini xahiş edirəm.

İkinci məsələ haqqında hörmətli deputatımız İsa müəllim müəyyən qədər danışdı. Belə ki, Nehrəm qəsəbəsində 3 tam orta məktəb fəaliyyət göstərir, Nehrəm qəsəbə 1 və 2 saylı tam orta məktəblərinə şəhid adları verilib. Onu da bildirmək istəyirəm ki, Nehrəm qəsəbəsində 13 şəhid ailəsi var. Çoxsaylı şəhid ailələrinin xahişlərini nəzərə alaraq Nehrəm qəsəbə 3 saylı tam orta məktəbinə və Nehrəm qəsəbəsinin küçələrinə şəhid adlarının verilməsini və onların adlarının əbədiləşdirilməsini xahiş edirəm.

Nehrəm qəsəbəsində təxminən 15 mindən çox əhali yaşayır və qeyd etdiyim kimi 3 tam orta məktəb, 1 musiqi məktəbi və 1 xəstəxana fəaliyyət göstərir. Həmin məktəblərdə çalışan insanların əksəriyyəti gənc analardır və işlədikləri üçün uşaqlarına lazımi səviyyədə qulluq göstərə bilmirlər, məcburi olaraq uşaqlarını Babək və Naxçıvan şəhərlərində yerləşən uşaq bağçalarına qoyurlar. Bu, uşaqlarını bağçaya gedib-gəlmələrini təmin edən valideynlər üçün həm maddi, həm də fiziki cəhətdən böyük çətinliklər törədir. Onu da qeyd etmək istəyirəm ki, Nehrəm qəsəbəsində 5 yaşadək uşaqların sayı 697 nəfərdir. Xahiş edirəm ki, Nehrəm qəsəbəsində uşaq bağçasının tikilməsinin zəruri olduğunu nəzərə alıb aid təşkilatlar tərəfindən tikintinin aparılması üçün 2024-cü ilin büdcəsindən vəsait ayrılmasına köməklik göstərilsin. Onu da bildirim ki, uşaq bağçasının tikintisi üçün hətta torpaq sahəsi də ayrılıb.

Nehrəm qəsəbəsində təxminən 60-70 faiz içməli su və kanalizasiya xətti çəkilərək istifadəyə verilib. Hazırda bu iş davam etdirilir. Dövlətimiz tərəfindən Nehrəm qəsəbə sakinlərinə göstərilən yüksək dövlət qayğısına görə bir deputat kimi öz adımdan və bütün Nehrəm qəsəbə sakinləri adından Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prazidentinin səlahiyyətli nümayəndəsi hörmətli Fuad Nəcəfli cənablarına və bu işdə əməyi olan bütün dövlət qurumlarına dərin minnətdarlığımı bildirirəm.

Bir məsələni də diqqətinizə çatdırmaq istəyirəm. Yaxın zamanlarda icbari tibbi sığortadan bizim xəstəxanaya gəlmişdilər. 14 oklad həkim ştatımız var, lakin hazırda 3 nəfər çalışır. Terapevtimiz olmadığına görə bir nəfər də Babək Rayon Xəstəxanasından Nehrəmə ezam olunub. İndi bizə belə bir göstəriş verilib ki, 50 xəstəyə də baxmış olsanız, 30 nəfərdən artıq icbari tibbi sığortanın ödənişi olmur. Hətta həmin o terapevtin bizə ezam olunmasına baxmayaraq, o həkimə icbari tibbi sığorta,

demək olar ki, heç əməkhaqqı da ödənilmir. Ona görə ki, müqaviləsi yoxdur. Belə fikirləşirəm ki, Babək Rayon Xəstəxanasında onun müqaviləsi olmasa yəqin işləyə bilməz. Çünki bütün həkimlər müqavilə ilə işləyir. Hamı bilir ki, mən bir həkim kimi şənbə günü, istirahət günləri işdə oluram, çünki bütün günlərdə xəstələr müraciət edirlər və təbii ki, biz onları qapıdan qaytara bilmərik, hamısına baxırıq. Xahiş edirəm nəzərə alınsın ki, əgər bizdə 14,5 oklad həkim ştatı varsa, burada 10 həkim işləsə, hər biri 20 nəfər qəbul etsə, demək olar ki, 200 nəfər edərdi. İndi bu məsələ 2 həkimin və 1 terapevtin ixtiyarındadır. Həmçinin ödəniş sadəcə 2 həkimə edilir və 30 xəstədən artıq baxıldıqda ödəniş edilmir. Xahiş edirəm bu məsələ də nəzərə alınsın.

**Sədrlik edən.** Çox sağ olun, Hüseyn müəllim, mövzuya görə minnətdaram. Ələm müəllimdən xahiş edəcəyəm ki, növbəti iclasda Səhiyyə Nazirliyinin və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin nümayəndələri burada iştirak etsinlər və sualı cavablandırsınlar. Əgər ehtiyac olarsa Ali Məclis adından sorğu göndərib cavab almaq olar. Cari məsələlərlə bağlı növbəti çıxışa yazılmış deputatımız 20 saylı Yarımca seçki dairəsini təmsil edən Həbibə xanım Allahverdiyevadır. Buyurun Həbibə xanım.

**H.Allahverdiyeva.** Hörmətli Anar müəllim, hörmətli deputatlarımız, hörmətli sessiya iştirakçıları!

Hər birinizi salamlayıram. Anar müəllim, siz şəhid adlarının əbədiləşdirilməsi haqqında danışdığınız üçün mənim də bu barədə bir xahişim vardır. Bu, seçildiyim Qahab, Yarımca və Güznüt kəndlərindən olan şəhidlərimizin adlarının əbədiləşdirilməsi məsələsidir.

Qeyd edəcəyim bir məsələ Badaşqan kənd sakinlərinin xahişidir. Kənddə məktəbin, mədəniyyət evinin, uşaq bağçasının, həkim ambulatoriyasının və kitabxananın tikintisinin vacibliyidir. Eyni zamanda bu müəssisələrin açılması işsizliyi də aradan qaldırmış olur. Eynilə kəndə internet və su-kanalizasiya xəttinin çəkilməsinə ehtiyac var.

Digər bir məsələ isə yola asfalt örtüyün verilməsi ilə bağlıdır. Göynük kəndinin daxilində yola asfalt örtük çəkilsə də kəndi tam əhatə etməyib. Nəhəcir kəndinin qurtaracağından başlayan torpaq yol Göynük kəndinin girəcəyinədək davam edir, ortada qalan məsafə asfaltlanmayıb. Bu da kənd sakinlərinin yağışlı havalarda əziyyət çəkmələrinə səbəb olur. Bu problem Nəhəcir kəndində də var. Mərkəzi yoldan əlavə digər yollara da asfalt örtük salınmasına ehtiyac var.

Əlavə olaraq qeyd edəcəyim hal su ilə bağlıdır. Deputat seçildiyim kəndlərdə sakinlər içməli və suvarma suyundan çox əziyyət çəkirlər. Belə ki, əvvəlki hesabatımda da bunu vurğulamışdım, Qahab kəndində "Vəkil bəndi" deyilən yerin istifadəyə verilməsini və Qahab gölünün təmizlənməsini irəli sürmüşdük, həmçinin mütəxəssislər həmin əraziyə baxıblar. Yəqin ki, mütəxəssislərin rəyi əsasında bərpa olunar və büdcə planlaşdırılmasında da bu məsələlərə baxılmasını xahiş edirəm. Göynük kəndində də əhali həm də içməli suya ehtiyac duyurlar. Qadınlar kəndin digər tərəfindən əllərində su daşıyarlar. Onlar xahiş edirlər ki, bu sahədə hər hansısa bir artezian quyusunun qazılması ilə və ya başqa altetrnativ yolla bu məsələ həll olunsun. Yarımca kəndində isə suvarma suyundan istifadə edə bilmələri üçün sakinlər belə bir təklif edirlər ki, çay suyunu nasosla atçılıq mərkəzinə, yəni kəndin yuxarı hissəsinə vurmaqla və suvarma suyunun istifadəsi üçün borular çəkilərsə az bir vəsaitlə bu çətinlik aradan qaldırılar.

Bundan başqa Qahab kəndində uşaq bağçasının tikintisinə böyük ehtiyac var. Bildiyiniz kimi Babək rayonunda Cəhri və Nehrəm qəsəbələrindən sonra üçüncü böyük kənd Qahab kəndidir. Uşaq bağçasının tikintisi həm təhsilimiz üçün faydalıdır, həm də işsizliyin aradan qaldırılmasına səbəb olar.

Deyəcəklərim bu qədər, çox sağ olun, minnətdaram.

**Sədrlik edən.** Sağ olun, Həbibə xanım. Hökumət nümayəndələri qeyd etdiklərinizi eşitdi, həmçinin ehtiyac olarsa məlumatları Ələm müəllimdən götürərlər. Cari məsələlərlə bağlı növbəti çıxışa yazılmış deputatımız 37 saylı Culfa şəhər seçki dairəsini təmsil edən Qadir müəllim İbrahimovdur.

**Q.İbrahimov.** Hörmətli Anar müəllim! Hörmətli deputatlar və hökumət nümayəndələri!

"Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin müzakirəsi zamanı deyilən təklif və müəyyən iradları nəzərə alaraq bəyənir və dəstəkləyirəm. Sözsüz qanun layihəsindən irəli gələn vəzifələr muxtar respublikamızın sosial-iqtisadi inkişafına yeni töhfələr verəcək, həmçinin Culfa rayonunun da inkişafına öz müsbət təsirini göstərəcəkdir. Əhalinin həyat səviyyəsi daha da yaxşılaşacaq, seçicilərlə görüşdə deyilən təklif və problemlər öz həllini tapacaqdır.

Culfa şəhərində seçicilərlə görüşlərdə əsasən suvarma suyu təminatının yaxşılaşdırılması, işsizlik, yeni iş yerlərinin açılması və sair məsələlər barədə təkliflər bildirilib. Həmin təkliflərdən bir neçəsini nəzərinizə çatdırmaq istərdim:

Culfa rayon seçicilərinin xahiş və təkliflərini nəzərə alaraq bildirirəm ki, Culfa rayonunda gənclərin asudə vaxtının səmərəli təşkili üçün Culfa Rayon Uşaq, Gənclər və İdman Məktəbi fəaliyyət göstərir. Lakin məktəbin yerləşdiyi bina tamamilə yararsız, əvvəlki dəmiryol klubu olan binada yerləşir. Bu gün orada tədbirlərin keçirilməsi üçün heç bir şərait yoxdur. Gənclərin asudə vaxtının təşkili üçün rayon mərkəzində Culfa Rayon Uşaq, Gənclər və İdman Məktəbi üçün yeni binanın tikilməsini təklif edirəm.

1960-1980-ci illərdə Culfa şəhərini içməli və suvarma suyu ilə təmin etmək üçün Araz çayı sahilində 6 artezian quyusu və 2 drenaj qazılmış, nasoslar vasitəsilə şəhərə içməli və suvarma suyu verilmişdi. Lakin Əlincə çayından yeni içməli su xətti çəkildikdən sonra həmin quyulardan gələn su dayandırılmışdır. Hazırda şəhərin suvarma suyuna ciddi ehtiyacı var. Həmin xətlər bərpa olunarsa Culfa şəhəri suvarma suyu ilə təmin oluna bilər.

1960-1970-ci illərdə Araz çayından nasoslar vasitəsilə dəmir borularla Culfa düzünə suvarma suyu çəkilmişdir. Yüz hektara qədər üzüm bağı, o cümlədən müxtəlif üzüm sortları salınmış və həmin əkin sahələri suvarılmışdır. 1990-cı illərdə dəmir boru xətləri sökülərək dağıdıldı. Culfa şəhərindən yüzlərlə sakin həmin üzüm bağlarında işləyirdi. Əgər Culfa düzünə, Darıdağın ətəyinə yenidən Araz çayından su xətləri çəkilib üzüm bağları salınarsa, şəhərin müəyyən qədər əhalisi işlə təmin oluna bilər.

Xahiş edirəm ki, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda bu təkliflər nəzərə alınsın.

Diqqətinizə görə çox sağ olun!

**Sədrlik edən.** Çox sağ olun, Qadir müəllim, minnətdaram. Növbəti çıxış etmək üçün söz 11 saylı Həmzəli seçki dairəsindən olan deputatımız, Sosial siyasət komitəsinin sədri Yeganə xanım Məmmədovaya verilir. Buyurun.

**Y.Məmmədova,** *Ali Məclisin Sosial siyasət komitəsinin sədri.*

Hörmətli Anar müəllim, hörmətli deputatlar və hökumət nümayəndələri!

Çıxış üçün söz verdiyinizə görə minnətdarlığımı bildirirəm. 2024-cü ildə Naxçıvan Muxtar Respublikası büdcəsinin xərcləri 516 milyon 365 min manat məbləğində proqnozlaşdırılır ki, bu da 2023-cü ilin büdcəsi ilə müqayisədə 88 milyon 648 min manat və ya 14,7 faiz azdır. Xərclərin iqtisadi təsnifatında sosial ödənişlərə 5 milyon 838 min 197 manat və ya xərclərin 1,1 faizi həcmində vəsait proqnozlaşdırılır. Burada əməyin ödənişi, malların satın alınması, qeyri-maliyyə aktivlərinin alınması, subsidiyaların ödənilməsi, qrandlar və digər ödənişlərdən sonra ən sonda sosial ödənişlər durur. Düşünürəm ki, sosial ödənişlər ən azından artırıla bilər. 2024-cü ildə Naxçıvan Muxtar Respublikası büdcəsinin xərclərində sosial yönümlü xərclər büdcə xərclərinin iqtisadi təsnifatına uyğun olaraq əməyin ödənişi, dərman və sağlıq ləvazimatları, materialların alınması, ərzaq məhsullarının alınması, pensiya və müavinətlər üzrə xərclərin cəmi xüsusi çəkisi 67 faiz səviyyəsində və ya 346 milyon 288 min 714 manat məbləğində proqnozlaşdırılır ki, bu da 2023-cü illə müqayisədə 18,8 faiz və ya 80 milyon 77 min 986 manat azdır. Sosial yönümlü xərclər hər zaman dövlətin prioritet

istiqamətlərindəndir. O baxımdan xərclərin azalmasının səbəbi məlumdur. Bir sıra sosial müavinət və təqaüdlərin Azərbaycan Respublikası dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərinə aid edilməsidir. Ümumiyyətlə büdcə zərfi əsasən insan amili nəzərə alınmaqla gəlirlərin və xərclərin optimallaşdırılması, büdcənin səmərəliliyinin daha da artırılması nəzərə alınmaqla hazırlanmışdır. Büdcənin 2024-cü il prioritetləri sırasında müəyyən istiqamətlərin vacibliyini həm də cari məsələlərlə bağlı olduğu üçün qeyd etmək istərdim. Bunları sıralamışam:

-suni qiymət artımının baş verməməsi üçün vahid qiymət tənzimlənməsi;

-kəndlinin əkdiyi məhsulların satış bazarının olması;

-Şərur rayonunda ənənəvi olan baramaçılığın bərpası;

Bir az arayış vermək istəyirəm ki, Şərur rayonunun deputatı olduğum ərazilər 9 kəndi əhatə edir: Aşağı Yaycı, Yuxarı Yaycı, Gümüşlü, Şahbulaq, Dizə, Həmzəli və Havuş kəndləri. Bu kəndlərin ərazisində geniş tut bağları var. Bunlar sovet dövründən qalmadır və yenilərini də əkmək mümkündür. Əgər baramaçılığın bərpası nəzərə alınarsa, mənə elə gəlir ki, həm iş yerlərinin açılması, həm də çox böyük əhəmiyyətli sahə olan baramaçılığın inkişafına gətirib çıxaracaq.

Şərur rayonunda da su ilə bağlı çətinliklər var. Mən də bir optimal yol düşünmüşəm, hansı ki, burada xərc tələb olunmur. Adını qeyd etdiyim kəndlər birbaşa Arpaçayın sahilində yerləşir. Bunlardan Gümüşlü kəndi var ki, onun ərazisində 1976-cı ildə tikilmiş su bəndi var, o bəndin lap aşağı hissəsində bol su ehtiyatı var. Ora el arasında “Sedava” deyirlər. Bəlkə də orada texniki baxımdan bir az iş getsə heç bir nasos və elektrik sərfiyyatı olmadan adını çəkdiyim kəndləri suvarma suyu ilə tamamilə təmin etmək olar. Hələ sovet dövründə Gümüşlü kəndində 6 iritutumlu borularla kəndlərə su verilirdi. Amma bu gün onlardan cəmi birini uzun fasilələrlə vururlar, kanal da təmir olunmadığından su batır, kəndlərə gedib çıxmır. Bu kanala bir az vəsait qoyularsa və müəyyən bərpa işləri görülərsə, mənə elə gəlir ki, bu kəndlərə su öz axarı ilə gələ bilər.

Kəndlərdə məhəllədaxili yolların asfaltlanması ilə bağlı belə bir təklif verərdim ki, yeni asfalt çəkəndə yoldan götürülən məhsulu kəndlərin məhəllədaxili yollarına versələr kifayət edir. Həmçinin istismar müddəti bitmiş avtobusların yenilənməsi, qadınların məşğulluğunun artırılması, əmək bazarına daha vacib peşə sahələrinin cəlb edilməsi, dərman qiymətlərində vahidlik, qadın sığınacaqlarının yaradılması kimi məsələlərin nəzərə alınmasını xahiş edirəm.

Bilirəm ki, şəhid adlarının əbədiləşdirilməsi çox çətin məsələdir. Çünki bir kənddə 3 şəhid varsa birinin adını orta məktəbə versən, o biri narazılıq edəcək. Bu məsələ hörmətli səlahiyyətli nümayəndə ilə görüşümüzdə də qeyd olunmuşdu, sadəcə fikrim, təkrar qeyd edəcəyəm bir şəhid adının bərpasıdır. Gümüşlü kəndindən olan 1992-ci ildə Daşaltı əməliyyatında şəhid olmuş Cavadov Abbas Şəmsi oğlunun 2018-ci ilə qədər adı həmin kəndin məktəbinə verilib, hətta məktəbin möhüründə rəsmi adı var, 2018-2019-cu illərdə artıq əmr kitabında ad çəkilmir, məktəbin möhürü də dəyişilibdir, Şəhid ailəsi, seçicilərim və məktəbin kollektivi adından xahiş edirəm ki, şəhidin adı bərpa olunsun. Əlavə olaraq bildirmək istəyirəm ki, deputat olduğum həmin kəndlərin birinci və ikinci Qarabağ müharibəsində cəmi 7 şəhidi var. Onlardan ikisi 44 günlük Vətən müharibəsinin şəhididir və təşəkkür edirəm dövlətimizə, səlahiyyətli nümayəndəyə ki, hər ikisinin adı əbədiləşdirilib. Babayev Babaxan Əlövsət oğlunun adına Yuxarı Yaycı kəndində bulaq tikilib, mayor Vüsal Əliyevin isə adına Dizə kəndində bu yaxınlarda hökumət nümayəndələrinin də iştirakı ilə bulaq açıldı. Bu, çox böyük diqqətdir.

Bir məsələ də əhalinin işlə bağlı məsələləridir ki, Ceyhun müəllim başda olmaqla, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təşəkkür edirəm. Dəfələrlə təşəkkür almışıq, bu son dövrlərdə. Olmayan bir şeydir ki, hansısa bir seçici mənə təşəkkür etsin. Bu işi mən görmüş kimi mənə təşəkkür etdilər, amma bilirəm ki, burada vəziyyət necədir. Sosial iş yerlərinin açılması, əhalinin iş yerləri ilə təmin olunması baxımından həm sizə, həm də hörmətli nazirimizə minnətdarlığımı bildirirəm.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Yeganə xanım. Cari məsələlərlə bağlı növbəti çıxış üçün söz 4 saylı Yengicə seçki dairəsindən olan deputatımız İsmayıl müəllim Qəribliyə verilir. Buyurun, İsmayıl müəllim.

**İ.Qəribli,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Hörmətli Anar müəllim, hörmətli hökumət üzvləri, hörmətli deputatlar!

Mənim iki sualım var və hörmətli nazirimiz Ceyhun müəllimə ünvanlayacam. Bildiyiniz kimi, son illər muxtar respublikada autizm sindromlu uşaqların sayı xeyli dərəcədə artıb və loqoped, psixoloq müalicəsi çox baha başa gəlir. Özəl kurslarda bir saatlıq müalicə seansı üçün 10 manatdan 20 manatadək vəsait sərf olunur.

Bakı şəhərində Heydər Əliyev Fondunun dəstəyi ilə Autizm Mərkəzi fəaliyyətə başlayıb. Naxçıvan şəhərində də Autizm Mərkəzi yaradılması mümkündürmü? Xüsusilə də aztəminatlı ailələr bu imkandan faydalana bilsinlər.

İkinci məsələ Ceyhun müəllim əvvəlki iclasımızda qeyd etdi ki, növbəti ildə haqqı ödənilən ictimai işlər üzrə 1000 kvota yerin ayrılması nəzərdə tutulur. Onu da öyrənmək istərdim ki, hansı meyarlar üzrə bölgü aparılacaq? Rayonlar üzrə əhalinin sayımı, vəzifə sayımı, hansı meyarlar əsas götürülür?

Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, İsmayıl müəllim. Növbəti çıxışa yazılan deputatımız 15 saylı Qarabağlar seçki dairəsinin deputatı Sevda xanım Quliyevadır. Buyurun, Sevda xanım.

**S.Quliyeva.** Hörmətli Anar müəllim, hörmətli həmkarlar, hörmətli hökumət üzvləri!

Hər birinizi salamalayıram. Təmsil etdiyim 15 saylı Qarabağlar seçki dairəsinin əhatə etdiyi ərazilərdə olan bir sıra problemləri diqqətinizə çatdırmaq istəyirəm.

Bildiyimiz kimi, Ulu Öndər Heydər Əliyevin məhv olmaq təhlükəsindən xilas etdiyi müstəqilliyimizin bəhrəsi kimi həyata vəsiqə qazanan Kəngərli rayonu 2004-cü il martın 19-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı "Naxçıvan Muxtar Respublikasında Kəngərli rayonunun yaradılması haqqında" Azərbaycan Respublikasının Qanunu əsasında yaradılmışdır. Ölkə Prezidentinin diqqət və qayğısı nəticəsində ötən illər ərzində rayonun bütün yaşayış məntəqələrində müasir infrastruktur yaradılmış, yollar salınmışdır. Hər bir kənddə müasir xidmət mərkəzləri, təhsil, səhiyyə, mədəniyyət müəssisələri və digər sosialyönümlü obyektlər tikilərək vətəndaşların istifadəsinə verilmişdir.

Rayonumuzun ən böyük kəndi Qarabağlar kəndidir. Qarabağlar kəndində 2 tam orta məktəb vardır ki, onlardan biri Qarabağlar kəndində 29 dekabr 2014-cü il tarixdə istifadəyə verilən 468 yerlik 1 nömrəli tam orta məktəbdir. Tikinti zamanı məktəb binasının arxasında yerləşən sanitar qovşağa su-kanalizasiya sistemi çəkilməmişdir. Sanitar qovşağın olmaması səbəbindən ibtidai sinif şagirdlərinin valideynləri uşaqlarına nəzarət etmək üçün dərs başlayandan qurtarana kimi məktəbdə gözləyirlər. Məktəb binasının ikinci mərtəbəsində yerləşən kompüter, müəllimlər otaqlarının və bəzi siniflərin döşəmələrində çökmələr var. Məktəb rəhbərliyinin dəfələrlə aidiyyəti qurumlara məlumat verməsinə baxmayaraq problemlər öz həllini tapmayıb. Əvvəlki sessiyada hökumət üzvləri qeyd etdi ki, 2024-cü ildə ayrılan büdcə xərcləri, ilk növbədə, ən vacib məsələlərin həllinə yönəldiləcək. Belə hesab edirəm ki, bu da vacib məsələlərdən biridir. Dünən seçicilərlə görüşüm zamanı həm məktəb kollektivi, həm də valideynlər bu problemlərin tezliklə həll olunacağına inandıqlarını bildirdilər.

Seçicilər tərəfindən qaldırılan digər məsələ isə Qarabağlar, Yurdçu, Qabıllı kəndlərində məhəlləarası yolların yararsız olmasıdır. Qarabağlar kəndində su xətləri çəkilən zaman məhəllə yolları daha yararsız hala salınıb. Kəngərli rayonunda tikintisi başa çatdırılmamış içməli su və kanalizasiya sistemi layihəsi 2024-cü ildə həyata keçiriləcəkmi? Həmçinin Kəngərli rayonunun Qarabağlar kəndində tələbata uyğun olaraq uşaq bağçasının tikilməsi 2024-cü ildə nəzərdə tutulubmu?

Xahiş edirəm ki, müvafiq icra hakimiyyəti orqanları 2024-cü ilin büdcəsinin icrası zamanı bunları nəzərə alsın.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Sevda xanım. Hökumət üzvü dediklərinizlə bağlı qeydiyyat götürdü. Hörmətli Baş nazirimiz də əvvəlki iclasda qismən cavablandırmışdı, amma yenə də cavab veriləcək. Üçüncü oxunuş zamanı Səbuhi müəllim hökumət üzvləri ilə birlikdə iclasda iştirak edəcək. Cari məsələlərlə bağlı növbəti çıxışa yazılan deputatımız 29 saylı Naxçıvan şəhər seçki dairəsindən seçilmiş Aidə xanım Allahverdiyevadır. Buyurun, Aidə xanım.

**A.Allahverdiyeva.** Hörmətli Anar müəllim, hörmətli deputatlar və hökumət üzvləri!

Hər birinizi salamlayıram. Deputat seçildiyim 29 saylı Naxçıvan şəhər seçki dairəsində seçicilərlə görüşümüz olub, bu ərazidə demək olar ki, infrastruktur formalaşdırılıbdır. Elə bir ciddi su, işıqlandırma və yol problemi yoxdur. Amma bir sıra məsələlər vardır ki, qısa və konkret şəkildə onları diqqətinizə çatdırmaq istəyirəm.

Naxçıvan şəhəri, Əliqulu Qəmküsar küçəsində yerləşən binalar çoxdan tikilib. Bu binalarda yaşayan əhali və seçicilər narazılıqlarını bildirir. Belə ki, məişət problemləri, binaların köhnə olması kimi hallar vardır. Əsasən də 6 saylı binada yaşayan sakinlər haqlı olaraq narahatdırlar. Bina yararsız və qəzalı vəziyyətdədir. Həmçinin həmin problem Naxçıvan şəhəri, Babək məhəlləsi bina 14-də də var. Bina yeni tikilmiş olsa da binada bəzi çatlar əmələ gəlib. Bu da haqlı olaraq sakinləri narahat edir. Diqqətinizə çatdırmaq istədiklərim bunlar idi, təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Ali Məclis Aparatından xahiş edəcəyəm ki, səsləndirilən məsələlərlə bağlı aidiyyəti qurumun rəhbərliyi də iclasda iştirak etsin. Üçüncü oxunuş zamanı onu da dinləməyə fürsətimiz olacaq. Növbəti çıxış etmək üçün söz 3 saylı Maxta seçki dairəsini təmsil edən hörmətli Nüsrət müəllim Həsənova verilir. Buyurun.

**N.Həsənov.** Hörmətli Anar müəllim, hörmətli deputatlar, hörmətli hökumət nümayəndələri!

Azərbaycan xalqı hər zaman hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, vətənin azadlığı və müstəqilliyi uğrunda ən ağır sınaqlara sinə gərmək, şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirmişdir. Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda şəhidlik zirvəsinə ucalmış vətən övladları fədakarlığı, şəhidliyi ilə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifələr yazdılar. Bu gün Azərbaycan xalqı onun milli mənliyini qoruyan, canlarından keçən vətən övladları ilə fəxr edir. Azərbaycan xalqı öz qəhrəman övladlarının fədakarlığını yüksək qiymətləndirərək onların əziz xatirəsini uca tutur, dərin ehtiramla yad edərək ruhları qarşısında baş əyir.

Şəhid adlarının əbədiləşdirilməsi üçün məktəblər, parklar, küçələr, şəhidlər xiyabanı, xatirə-bulaq kompleksləri yaradılır. Onların ailə üzvlərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, yaşadıqları mənzillərə gedən yolların asfaltlanması, işlə təmin olunması məsələlərinə xüsusi diqqət yetirilir. Həmçinin qazilərin əlillik təyinatları, pensiya məsələləri qanunauyğun olaraq həyata keçirilir.

Bu yaxınlarda seçicilərlə görüş zamanı Kərimbəyli kəndində olmuşam. Həmin kəndin 4 şəhidi vardır. Bu şəhidlərin ikisi Bakı şəhərində, ikisi isə Kərimbəyli kənd qəbiristanlığında dəfn olunmuşdur. Kənd qəbiristanlığında dəfn olunmuş şəhid Abbasov Heydər Bayram oğlunun və Həsənov Əli Abbas oğlunun qəbirləri tərəfimizdən ziyarət olunmuşdur. Şəhid ailəsini ziyarət edərkən onlar hər iki şəhidin qəbirüstü sütununun bərpa olunmasını və “Zastava yolu” deyilən yolun asfaltlanmasını xahiş etmişlər. Onu da qeyd edim ki, bu yol, həm də şəhid Abbasov Heydər Bayram oğlunun evinə gedən yoldur. Aidiyyəti idarə, müəssisə, təşkilatlardan və hökumətdən bu məsələyə münasibət bildirməsini xahiş edirəm. Eləcə də şəhidin qardaşı Abbasov İlham Bayram oğlu Dəmir yolunda elektrik montyoru işləyirmiş, 2018-ci ildə işdən azad edilən zaman 18 günlük əməkhaqqısı və son hesabı ödənməmişdir. Maxta kəndində şəhid Həsənli Novruz Nəbi oğlunun ailəsini ziyarət edərkən atası Həsənov Nəbi Bayram oğlu qızının, yəni şəhidin bacısı Həsənova Zülfiyyə Nəbi qızının işlə təmin

olunmasını xahiş etmişdir. Onu da qeyd edim ki, işlə təmin olunması üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə və Şərur rayonu üzrə Məşğulluq Mərkəzinə müraciət etmişdir. Zülfiyyə Həsənova ailəlidir, 2 uşağı var, lakin nikahı pozulduğundan atası ilə birgə yaşayır və 150 manat aliment alaraq uşaqlarını böyüdür. Qısa müddət ərzində ünvanlı dövlət sosial yardım alıb, lakin hazırda yardım da dayandırılıb. Sosial müdafiəyə ehtiyacı vardır, işlə təmin olunmasını xahiş edirəm.

Hörmətli Anar müəllim, hörmətli deputatlar!

Seçki dairələrinin yerləşdiyi ərazilərdə və dairə seçki məntəqələrində deputat fəaliyyətinin intensivliyinin artırılması, vətəndaş qəbulu, deputata daxil olan yazılı müraciətlərə baxmaq, şəhid ailələri və qazilərlə fərdi görüşlərin təşkili, sakinlərin sosial problemlərinin həlli ilə bağlı məsələlərin araşdırılması, ayrı-ayrı dövlət orqanlarına deputat sorğularının hazırlanması məqsədi ilə deputat fəaliyyəti üçün otaq və ictimai əsaslarla deputat köməkçisinin rəsmiləşdirilməsini təklif edirəm.

Hörmətli deputatlar!

Ali Məclisin Daxili Nizamnaməsinin 1.4-cü bəndinə uyğun olaraq səlahiyyəti dövründə Ali Məclis ildə iki dəfə, iyul ayının 15-dən avqust ayının 30-dək və yanvar ayının 1-dən 15-dək tətilə buraxılır. Tətil dövründə Ali Məclisin deputatları məzuniyyətdə sayılır. Lakin tətil müddətində deputata əlavə məzuniyyət haqqı ödənilmir. Təklif edirəm ki, deputatın məzuniyyət müddətində ona əlavə məzuniyyət haqqının ödənilməsi məsələsinə baxılsın.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Nüsrət müəllim. Sondakı iki məsələ bilavasitə Ali Məclisə aid olduğuna görə aydınlıq gətirəcəyəm. Çox sağ olun ki, deputatların köməkçisi məsələsini qaldırdınız. Ali Məclisdə Aparatla birlikdə bu praktikanı öyrənməyə çalışdıq. Bir sıra ölkələrdə maliyyələşmə mənbələri, resurs az olan yerlərdə deputatların ictimai əsaslarla köməkçiləri olduğu bir praktika var. Fürsətdən istifadə edərək Hüquq siyasəti komitəsinə tapşırıq verirəm ki, bu məsələni öyrənsin, lazım olsa bununla bağlı Aparatın müvafiq şöbəsi ilə birlikdə qanun layihəsi hazırlansın. Vacib məsələdir, eləcə də bu, ictimai iştirakçılığı artıracaq. Yeni bacarıqlı kadrların yetişdirilməsi, ictimai işlərə cəlb edilməsi baxımından vacibdir, xüsusilə də gənclərin bu işlərdə iştirakı mütləqdir.

İkinci məsələnin Aparatla birlikdə yaxın vaxtlarda müzakirəsini apardıq və qanunauyğun olaraq Ali Məclisin deputatları yanvar ayının 1-dən 15-nə kimi qış məzuniyyətinə buraxılacaq. Ona görə 15-nə kimi ki, yaz sessiyası fevral ayının 1-də başlayır, amma komitələrdə iş yanvar ayının 15-də başlayacaq. Həmçinin yay məzuniyyətində əlavə məzuniyyət ödənişinin verilməsi ilə bağlı Milli Məclislə əlaqə saxladım. Belə ki, Milli Məclisdə deputatlar məzuniyyətə buraxılarkən onlara fərqli bir məzuniyyət haqqı hesablanmır. Çünki onların maliyyələşməsi başqadır. Biz məsələni daha ətraflı öyrənəcəyik ki, deputatların sosial və qanunla qorunan digər haqları müdafiə olunsun. Çox sağ olun. Cari məsələlərlə bağlı son olaraq çıxışa yazılan 2 saylı Heydərabad seçki dairəsini təmsil edən Vüsalə xanım Əliyevadır. Buyurun, Vüsalə xanım.

**V.Əliyeva.** Hörmətli Anar müəllim, deputatlar və hökumət nümayəndələri!

İşsizlikdən sığorta fondu ilə bağlı hörmətli Ceyhun müəllimə sualım var. Bu məsələyə baxdım, yazıb ki, işsizlikdən sığorta fondundan müəssisə və təşkilatlarda çalışan işçilərin ixtisarı ilə bağlı işsizliyə görə sığorta ödənişlərində artım gözlənilməkdədir. Mənə maraqlıdır, müxtəlif təşkilatlarda işçilər ixtisar zamanı bu müavinətdən yararlanırsa, bəs uzun illər - 10, 15, 20 il dövlət orqanlarında çalışan işçinin əmək müqaviləsinə xitam verilərsə, o işçilər bu müavinətdən yararlana biləcəkmi? Əgər yararlana bilməzsə, o işçilərin aqibəti necə olacaq? Onların dövlət orqanlarında uzun illər xidməti olubdur və işdən çıxarılan zaman sonrakı müddət üçün bir şərait yaradılmalıdır.

İkinci sualım Sosial yardımlarla bağlıdır, belə ki, Sədərək rayonunda ünvanlı dövlət sosial yardımlar kütləvi şəkildə dayandırıldı. 3 il bundan əvvəl 150-yə yaxın ailə sosial yardımdan faydalanırdısa, bu yardım sonradan 350 nəfərə yaxın adama təyin olundu, indi isə yardım 41 nəfərə şamil edilir. Bu gün ailə büdcəsi həddindən artıq aşağı olan, ödənişli əsaslarla təhsil alan övladları

olan ailələr var ki, çətinliklə üzləşibdir. Dayandırılan ünvanlı dövlət sosial yardımların sonrakı vəziyyəti ilə bağlı məlumat almaq istərdim.

Üçüncü sualım isə müxtəlif təsərrüfat xərcləri ilə bağlıdır. Hazırda müxtəlif idarə və təşkilatlara, o cümlədən məktəblərə ayrılan təsərrüfat xərcləri 40 il bundan əvvəl sovet dövrünün vaxtındakı kimi hesablanır. Amma nəzərə alsaq ki, bu gün təsərrüfat xərclərinə çox böyük ehtiyac var. Xüsusilə sanitar qovşaqların, döşəmələrin təmizlənməsində müxtəlif dezinfeksiyaedici maddələrdən istifadə zamanı, həmçinin sinif otaqlarının pərdələrinin yenilənməsinə ehtiyac olur. Məsələn hazırda çalışdığım Sədərək kənd 2 nömrəli tam orta məktəb 2010-cu ildə istifadəyə verilib, o zaman asılan pərdələr 6 il istifadə oluna bildi, daha sonra müəllimlərin məvacibi hesabına, maaşlarından pul toplanaraq pərdələr yeniləndi. İndi yenə də vəziyyət yaxşı deyil. Aydınlıq gətirmək istəyirəm ki, təsərrüfat xərclərinin artırılmasına imkan varmı? Yəni onların maliyyələşdirilməsinə nə dərəcədə köməklik göstərə bilərik? Bu barədə xahiş edirəm suallar cavablandırılsın.

**Sədrlik edən.** Çox sağ olun, Vüsalə xanım. Bir məsələni qeyd edim, başa düşürəm Ali Məclisin bir az funksionallığını təzə-təzə edirik. Buna görə də başda mən olmaqla səhvlərimiz də olur. Amma xahiş edirəm ki, Vüsalə xanım, buradakı bu blankdan da istifadə edərək siz bu sualınızın birinci hissəsini qanun layihəsi müzakirə olunarkən verərdiniz, ikinci hissəsini də təbii ki, hökumətə ünvanlaya bilərsiniz. Aləm müəllim də qeydiyyatını götürdü və üçüncü oxunuşda Səbuhi müəllim bu suallara cavab verəcək.

İclasımızın əvvəlində də qeyd etdim ki, qanun layihəsinin ikinci oxunuşunun müzakirəsi ilə əlaqədar Ali Məclisin iclasında Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri hörmətli Ceyhun müəllim iştirak edir. Bəzi suallar və fikirlər səsləndi, onlara aydınlıq gətirmək üçün Ceyhun müəllimə söz verilir.

**C.Cəlilov,** *Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri.*

Hörmətli Anar müəllim, təşəkkür edirəm.

Mən istəyirəm icazənizlə, ilk növbədə, Vüsalə xanımın sualına cavab verim. Vüsalə xanım işsizlikdən sığorta ödənişlərinə toxundu. Məhz bu sığorta ödənişləri işini itirən şəxslərə şamil olunur. Yəni işsizlikdən sığorta ilə bağlı qanunvericiliyin müəyyən etdiyi şərtlər daxilində istər iş yerində ixtisara düşən şəxslər, istərsə də əmək müqaviləsinin müddəti bitən şəxslər və ya çalışdığı təşkilatın, müəssisənin qanunla müəyyən olunmuş təşkilati hüquqi formasından asılı olaraq ləğv olunması nəticəsində işini itirən şəxslərə ən çoxu 9 ay müddətində işini itirdikdən sonra verilir və xüsusi orada müəyyən olunmuş qaydalar çərçivəsində sığorta ödənişləri tətbiq olunur. Hesab edirəm ki, Vüsalə xanımın da sualına izah verdim, belə ki, uzun illərdir işləmiş, təşkilatı və ya ştatı ixtisara düşmüş mütəxəssislər, əməkdaşlar sığorta üçün müraciət edə bilərlər və qeyd etdiyim kimi bunun əsas səbəbi odur ki, bu ildən müəyyən öhdəliklər növbəti ilə keçir. Artıq sentyabr ayından etibarən sığorta ödənişləri ödənilməyə başlayıb. Ona görə də 9 ay müddətində növbəti ilə keçən şəxslər var ki, onlar bu ilin öhdəlikləridir, bu ilə nisbətdə növbəti il bizim gözləntimiz bir az daha yuxarıdır.

İkinci sualla bağlı cavab vermək istəyirəm. Sədərək rayonunda gedən proseslər zamanı il ərzində müəyyən ünvanlı dövlət sosial yardımların verilməsində dəyişikliklər baş verdi. Nəzərinizə çatdırmaq istəyirəm ki, cari ilin mart ayında əhaliyə ödənilmiş ünvanlı dövlət sosial yardımın həcmi 30 min manat həcmində olduğu halda, artıq bu ilin dördüncü rübündə bu ödənişin həcmi 700 min manat həcmindədir. Bu o deməkdir ki, əhaliyə artıq böyük həcmdə ünvanlı dövlət sosial yardım müvafiq qanunvericiliyin tələbləri çərçivəsində ödənilməyə başlandı. Sədərək rayonunda ilin müəyyən dövrlərində qanunvericiliyin tətbiqində müxtəlif yanaşmalar olmuşdur və orada həyata keçirdiyimiz islahatlar müəyyən ünvanlı dövlət sosial yardım alan vətəndaşların sonradan hüquqlarının bu istiqamətdə itirilməsinə gətirib çıxardı. Çünki ünvanlı dövlət sosial yardım əhalinin işsiz şəxslərinə verilir, tənbəlliyə təşviq etmir. Ünvanlı dövlət sosial yardımda ailədə, təsərrüfatda olan əmək qabiliyyətli şəxslərin işləyib, lakin ailənin bütün üzvlərinə adambaşına ehtiyac meyarından daha az gəlir təmin olunursa dövlət həmin gəlirləri ehtiyac meyarı səviyyəsinə qaldırmağı öz öhdəliyinə götürür. Təəssüf ki, bizim bu istiqamətdə xidmətlərimizin elektronlaşması və avtomatlaşması ilin

dördüncü rübünə çəkdi və bu da yerlərdə qanunvericiliyin tətbiqində müxtəlif yanaşmalara səbəb oldu. Artıq bu ilin dördüncü rübündən etibarən vahid sistem tətbiq olunmağa başladı, mərkəzləşmiş elektron informasiya sistemi vasitəsilə vətəndaş artıq noyabrın əvvəlindən etibarən öz ünvanında, heç bir ünvana yaxınlaşmadan internet vasitəsilə ünvanlı dövlət sosial yardımına müraciət edir və ondan əvvəl tələb olunan kütləvi sənədlər artıq istənilmir, çünki, sistem vasitəsilə aidiyyəti qurumlardan lazımi məlumatlar inteqrasiya olunur. Əgər vətəndaşın özü ilə bağlı daxil etdiyi məlumatda uyğunsuzluq olarsa, bu zaman müraciətdən sonra sosial məişət şəraitinin müayinəsi əməkdaşlar tərəfindən aparılır və hər bir müayinənin çəkilişi, səs yazısı aparılır və sistemə də yerləşdirilir. Uyğunsuzluq olduğu halda həmin yardımın verilişi dayandırılır. Təəssüf ki, Sədərək rayonunda apardığımız monitorinq müəyyən sayda yardımların dayandırılması ilə nəticələndi, həmçinin hər bir hal aktlaşdırılıbdır, onların aktları müəyyən sübutlarla formalaşdırılıbdır. Amma ümumiyyətlə hörmətli deputatlarımızın diqqətinə çatdırmaq istəyirəm ki, muxtar respublikada ünvanlı dövlət sosial yardımı istiqamətində böyük bir islahat həyata keçirildi və əhaliyə verilən yardım hüququ formalaşan hər kəsə tam təmin olunub və növbəti ildə də bu islahat davam edəcəkdir. Böyük çərçivədə qeyd etdiyim "VEMTAS" sisteminin təbliğatını aparırıq, vətəndaşlar artıq heç kimin müdaxiləsi olmadan özü birbaşa ünvanlı dövlət sosial yardım almaq hüququnu sistem vasitəsilə birinci yoxlaya biləcək və ardınca da müraciət edə biləcəkdir. Rəqəmi bir daha səsləndirmək istəyirəm ki, ilin əvvəlində aylıq 30 min manat həcmində ünvanlı dövlət sosial yardım ödənilirdisə, artıq bu ay 700 min manat həcmində ünvanlı dövlət sosial yardım ödəmişik və apardığımız təhlillər nəticəsində növbəti ildə bu məbləğ daha da böyüyəcəkdir. Əminəm ki, istər Dövlət Proqramının icrası, istərsə də muxtar respublikada aparılan bütün islahatlar müəyyən dövrdən sonra artıq ünvanlı dövlət sosial yardımların təbii şəkildə azalması ilə nəticələnəcəkdir. Anar müəllim, icazə verirsinizsə digər məsələlərə də toxunum.

**Sədrlik edən.** Buyurun, vaxtımız var.

**C.Cəlilov,** *Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri.*

Digər bir məsələ, hörmətli deputatımız Turan xanım Məmmədlinin və digər deputatlarımızın qeyd etdiyi məzarların yenilənməsi ilə bağlıdır. Bu istiqamətdə işlər aparılır və ümumi bütün Naxçıvan Muxtar Respublikasında dəfn olunan şəhidlərin məzarlarının monitorinqi tərəfimizdən aparılıb və hökumətə də artıq təkliflər göndərilibdir. Eləcə də bu istiqamətdə tapşırıqlar da verilibdir, yaxın müddətdə şəhidlərin məzarlarının tam və ya qismən təmiri nəzərdə tutulubdur, yəqin ki, qısa bir müddət ərzində nəticələrin şahidi olacağıq.

Hörmətli deputat İsa Məmmədovun qeyd etdiyi şəhid ailələrinə verilən 2 min 500 manat aylıq ödənişlə bağlı ilk olaraq istəyirəm bildirim ki, elə bir müavinət növü yoxdur. Hesab edirəm ki, söhbət səsləndirilməsə də muxtar respublikada fəaliyyət göstərən şəhid ailələri və müharibə əlillərinin sosial məişət şəraitinin yaxşılaşdırılması üçün formalaşdırılmış dəstək fondundan gedir. Dəstək fondu ehtiyac əsasında istər şəhid ailələrinin, istərsə də müharibə əlillərinin ehtiyaclarının təmin olunması üçün bir sıra istiqamətlərdə dəstək göstərir. Onların sosial məişət şəraitlərinin yaxşılaşdırılması, müəyyən mərhələlərdə onların sağlamlığının bərpa olunması, təhsil xərcləri və imtiyazlı şəxslərin istehlak kreditlərinin ödənilməsi üçün fond fəaliyyət göstərir, tərəfimizdən ehtiyaclar müəyyən olunduğu halda verilir. Birmənalı olaraq bu belə qəbul edilməməlidir ki, fond bütün imtiyazlı şəxslərə bərabər səviyyədə 2 min 500 manat yardım ödəyəcəkdir. Bunu belə qəbul etmək olmaz. Xahiş edirəm deputatlarımız seçiciləri ilə də bu istiqamətdə lazım olanda marifləndirmə işləri aparsın ki, dəstək fondu yalnız ehtiyac əsasında əsaslandırılmış formada işlərini həyata keçirir. Həmçinin dəstək fondunun himayəçilik şurası bu il yaradıldı, baxmayaraq ki, fond 3 il müddətindədir ki, fəaliyyət göstərir, ümumi nəzarət şurası yaradıldı. Şura 7 nəfərdən ibarətdir. Ödənilən hər bir vəsait şura ilə razılaşdırılmaqla həyata keçirilir və əsaslandırmalıyıq ki, hansı ehtiyac əsasında bu vəsait ayrılır. Gözləntinin idarə olunması baxımından xahiş edirəm ki, bu məlumatları nəzərə alasınız.

Digər məsələ olan İsmayıl müəllim Qəriblinin sualına qısaca cavab verim. İsmayıl müəllim reabilitasiya-bərpa məsələsinə toxundu. Naxçıvan Muxtar Respublikasında məhdud fiziki imkanlı şəxslər üçün Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Regional İnformasiya Mərkəzi və Uşaq-Bərpa Mərkəzi fəaliyyət göstərir. Bizim

müəssisələrdə loqopedlər, deffektoloqlar, surdoloqlar kimi müasir istiqamətlər üzrə mütəxəssislərimiz var. Deməzdim ki, orada təkmilləşdirmə işinə ehtiyac yoxdur, təkmilləşdirmə planları da nəzərdə tuturuq və növbəti ildən artıq layihələndirmə işlərinə başlamışıq, Naxçıvan İnkluziv İnkişaf və Yaradıcılıq Mərkəzinin formalaşdırılması üçün işlər aparırıq. Bu həm sosial reabilitasiya, həm də tibbi-psixoloji reabilitasiya, yaradıcılıq inkişafının artırılması məqsədilə bu cür fiziki imkanları məhdud uşaqlar üçün nəzərdə tutulmuş mərkəzdir. Ancaq bugünkü problemdən danışırıqsa, bəli, biz autizm və digər fiziki imkanı məhdud uşaqlar üçün loqoped xidməti göstəririk, Ordubad və Şərur rayonlarında da şöbələrimiz vardır. Hesab edirəm ki, burada müəyyən boşluqlarımız ortaya çıxır, belə ki, fəaliyyətimizin cəmiyyətə çatdırılması üçün daha böyük addımlar atmalıyıq.

2024-cü ildə haqqı ödənilən ictimai işlərin bölgüsü ilə bağlı danışmaq istərdim. Şübhəsiz ki, haqqı ödənilən ictimai işlər də dövlətin növbəti bir humanist addımıdır və məşğulluq imkanlarının artırılması, işsizliyin azaldılması üçün dövlət tərəfindən həyata keçirilən işdir. Prioritetimiz aztəminatlı ailələrin və işə daha çox ehtiyacı olan, ehtiyac əsasında haqqı ödənilən ictimai işlərin bölgüsünü aparırıq. Birmənalı olaraq deyə bilmərəm ki, biz rayonlar arasında, genderlər arasında və ya yaş qrupları arasında bərabər bölgü edirik. Belə bir bölgü yoxdur. Əsas meyar məhz ehtiyacın müəyyən olunmasıdır. İşsizliklə bağlı müraciət edən hər bir şəxsin məşğulluq imkanları qiymətləndirilir, ona “MİQ” prosesi deyirik və fərdi məşğulluq proqramı formalaşdırılır. Həmin şəxsin həm özünün, həm də ailəsinin gəlirləri nəzərə alınmaqla sıralamada birbaşa düşür ki, o, hansı işlə təmin olunacaqdır. Bununla da haqqı ödənilən ictimai işlərə 1000 nəfər kvotanın bölgüsünü bu cür formalaşdırmışıq.

**Sədrlik edən.** Ətraflı məlumata görə çox sağ olun, Ceyhun müəllim. Bir haşiyə çıxım ki, Ceyhun müəllim Dəstək Fondu haqqında danışdı. Deputat həmkarlarımın bəlkə tam məlumatı olmasa da Fondun himayəçilik şurasının 3 üzvü Ali Məclisin deputatıdır. Mən, Aidə xanım və Asim müəllim orada təmsil olunuruq və hesab edirəm ki, Məclisin kifayət qədər orada təmsilçiliyi var. Həm də fondun işi də şəffafdır, onun informasiya resursu açıqdır, kim istəsə oradakı Dəstək Fondunda xərclərə baxa bilər. Həqiqətən bu məsələlər böyük gözləntilərin qarşısının alınması üçün qeyd olunmalıdır.

**Y.Məmmədova,** *Ali Məclisin Sosial siyasət komitəsinin sədri.*

İsa müəllimin qeyd etdiyi 2 min 500 manat məsələsi komitədə də müzakirə edilib, əhali arasında bir az maarifləndirmə az olduğu üçün elə bilirlər ki, Zəfər Günündə 3 min manat şəhid ailələrinə ödənildi, elə fikirləşirlər ki, bu da həmin vəsaitdəndir. Deputatımız haqlıdır, çünki şəhid ailəsi deyir ki, “varlı-kasıb axtarırsınız?”, “Başqa adama niyə verildi?”, halbuki, məsələn həmin adamın evi yanıb və ehtiyac olaraq ona 10 min manat pul ödənilibdir.

**Sədrlik edən.** Yeganə xanım, mən nisbətən işin içindəyəm, məsələn, birinin evi tam yana bilər, birinin evinin bir qismi yana bilər, birinin evi yanmaya bilər, yəni hamını eyni cür qiymətləndirmək olmaz. Düz deyirsiniz, Dəstək Fondu var, lazım olsa Fondun işində də başqa deputatlarımız da iştirak edə bilər. Qeyd edim ki, Fondun işi çox şəffafdır. Həm də bizim üzərimizə də bəzi vəzifələr düşür, yeri gəlmişkən, demək lazımdır ki, Dəstək Fondu təkcə xərclərə nəzarət etmir, həm də biz çalışmalıyıq ki, Fonda daxilolmalar da olsun. Burada da təbliğat etməliyik ki, əhali həmin Fond vasitəsilə öz ianələrini etsin.

Çox sağ olun, ətraflı məlumata görə, Ceyhun müəllim. Aləm müəllim, sözünüz yoxdur? Yoxdur, bu məsələləri hökumətin diqqətinə çatdırarsınız. 22 dekabrda qeyd etdiyim kimi, Ali Məclisin növbəti iclasını planlaşdırmışıq, həmin gün büdcə müzakirəsinin üçüncü oxunuşunu qəbul edəcəyik. Deputat həmkarlarımdan xahiş edirəm ki, Ali Məclisin iclaslarında yetərsay məsələsi var, 31 deputatdan az olduqda iclası keçirə bilmirik, icazə alanda və ya digər hallarda bu məsələ diqqətə alınsın ki, Ali Məclisin iclaslarını keçirə bilək.

İclasımız bitdiyinə görə mən iclası bağlı elan edirəm.

Sağ olun.